# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №28 (68) • 12.12.2011


AzadliqRadiosu.az


**Rusiya müxalifəti hökumətə 2 həftə vaxt verdi** səh.2

**Gənclər şəhərin mərkəzində aksiya keçiriblər** səh.3

N.Cəfəroğlu: **«Hökumət nə hüquq müdafiəçilərini vecinə alır, nə jurnalistləri»** səh.3

**Akademik sükutu pozdu** səh.5

Qubad İbadoğlu: **"Prezident Neft Fondunu öz fondu kimi idarə edir"** səh.8

**Dövlət başçısının qızları 200 milyon dollar ziyana düşüb** səh.9

**Milyonçu Dadaşovun nəticələri niyə Bakıdan qaçıblar?** səh.12

**Bəxtiyar Hacıyev həbsdə suallara cavab verir** səh.14


## Azərbaycanlı hüquq müdafiəçisi Türkiyədə niyə döyüldü?



səh.6

## Armen Ciqarxanyan: "Azərbaycanla danışıb razılığa gəlmək lazımdır"

"Mənim anladığım budur: biz yanaşı yaşayırıq və danışıb razılığa gəlməliyik. Əgər biz bundan yaxşı yol biliriksə, onda gəlin müharibə edək. Bu, boş və mənasız işdir. Biz səninlə çoxdan anlamışıq ki, heç kimə kimisə məğlub etmək müəssər olmayıb. Hər iki tərəf uduzur. Əgər yanaşı yaşayırıqsa, razılığa gəlməliyik". səh.13

Seç ki, seçəsən...




**Nazir oğlunun 2,4 milyon dollarlıq ödənişi** səh.9

**Jurnalisti övladlarını öldürməklə hədələyiblər** səh.8

**Проголосовало 146% избирателей!** səh.7

**Prezident fərmanı ilə nəşr olunmuş kitabları kim satışa çıxarıb?** səh.4

# Rusiya müxalifəti hökumətə 2 həftə vaxt verdi







**Dekabrın 10-da ədalətli seçki tələbilə Rusiyanın onlarla şəhərində etiraz aksiyaları keçirilib. Ulyanovskda mitinqə bir neçə saat qalmış polis onun təşkilatçısını saxlayıb. Xabarovskda isə şəhərin mərkəzində azı 20 fəalın saxlandığı xəbər verilir. Vladivostok və Blaqoveşenskdə isə mitinqlər insidentsiz ötüşüb. Həmçinin xaricdə Rusiyadakı nümayişçilərə dəstək olaraq müxtəlif aksiyalar nəzərdə tutulub.**

Moskvanın Bolotnaya meydanında ədalətli seçki tələbiylə keçirilən mitinqin sonunda seçkinin nəticələrinin ləğvi tələbi ilə qətnamə qəbul edilib. Sənəddə həmçinin bütün siyasi məhbusların azad edilməsi, Mərkəzi Seçki Komissiyasının sədri Vladimir Çurovun istefası, seçkiyə buraxılmayan partiyaların qeydiyyata alınması və yenidən ədalətli seçki keçirilməsi tələb olunur.

Təşkilatçılar dekabrın 24-də növbəti aksiyaya çıxacaqlarını bildiriblər. Onlar həmçinin müdaxilə olmadığına görə polislərə təşəkkür bildirib, "Polis xalqladır" şüarları səsləndiriblər. Təşkilatçıların sözlərinə görə, Bolotnaya meydanında keçirilən mitinqdə 100-150 min arası adam iştirak edib. Daxili İşlər Nazirliyi isə aksiyaçıların 20 mindən artıq olmadığını deyir.

Sankt-Peterburqda da yerli məclisə keçirilmiş seçkinin nəticələrinin ləğvi tələbi ilə nümayiş keçirilib. «Başqa Rusiya» Partiyasının Peterburq şöbəsinin rəhbəri Andrey Dmitriyev bildirib ki, 8 gün ərzində tələb yerinə yetirilməsə, növbəti bazar günü meydana 10 dəfə çox adam çıxacaq. Təşkilatçılar Peterburq mitinqində 5 minə yaxın adamın iştirak etdiyini deyirlər.

Rusiya hökuməti hələlik mitinqlərə münasibət bildirməyib. Baş nazir Vladimir Putinin mətbuat katibi Dmitri Peskov "Qazeta RU"ya müsahibəsində deyib ki, hökumət hələlik çoxminlik etirazlara münasibətini müəyyənləşdirə bilmir.

# Kəmaləddin Heydərov Yaponiyadan mütəxəssislər gətirib



Kəmaləddin Heydərov

### «BAYILDA SÜRÜŞMƏNİN QARŞISI ALINACAQ»

*«Bayılda sürüşmənin qarşısı müasir üsullarla alınacaq». Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov belə deyib. AzadlıqRadiosunun «Bayıl yamacındakı sürüşmə şəhər üçün hansı təhlükəni törədə bilər» sualına cavabında o, bunları deyib:*

- Yaponiyadan mütəxəssislər dəvət etmişik. Bayılda böyük bir qrup işləyir. Qrupun məqsədi sürüşmənin dərinliyini, kütlənin həcmini və harada fəsadlar törədə biləcəyini öyrənməkdir. Maksimum dərinliklərdə sınaq quyuları qazır, geoloji təbəqələrdə təhlillər aparmaqla yekun sənəd hazırlayırıq. Təbii ki, bunun qarşısı ən müasir üsullarla alınacaq. Biz artıq yapon şirkətinin yeni texnologiyaları və tətbiq edəcəyi işlərlə tanışıq. Təhqiqatlar başa çatandan sonra harada bərkitmə işləri aparılacağı haqda açıqlama verəcəyik.

*- Həmin ərazidə yerləşən Şəhidlər Xiyabanı üçün təhlükə varmı?*

- İndi elə bir təhlükə yoxdur. Amma bunların qarşısı bəzi yerlərdə ciddi dərəcədə, bəzi yerlərdə müəyyən dərəcədə alınmalıdır.

### HOLLANDİYADAN YENİ GƏMİLƏR ALINIB

*Kəmaləddin Heydərov bunu da deyib ki, Kürdə təmizləmə işləri aparmaq üçün Hollandiyadan 3 müasir, çoxfunksiyalı gəmi alınıb:* «Bu yaxınlarda onlar Kür zonasında işləməyə başlayacaqlar. Onlar Kürün dibini dərinləşdirməli və sahilbərkitmə işləri aparmalıdırlar».

Nazir yaxın günlərdə Salyan, Kürdəmir və Neftçalada qrunt sularının təmizlənməsinə də başlanacağını deyib.

### «BELƏ BİNALARDA İNSAN YAŞAMAMALIDIR»

*Fövqəladə Hallar naziri yeni binalar haqqında da danışıb:* «Bütün texniki şərtlərə əməl olunmadan, bina təhvil alınmadan o binalarda yaşamaq olmaz. Bir də görürsən deyirlər ki, filan binada insanlar yaşayır, amma ora qaz verilmir. Qaz təşkilatı onu qəbul etməyibsə, necə qaz vermək olar? Buna insanlar da, inşaat şirkətləri də fikir verməlidirlər. Əvvəllər buraxılan səhvləri təkrar etməməlidirlər».

Kəmaləddin Heydərov onu da əlavə edib ki, Bakıda istismar dövrü başa çatan minlərlə binada təhlil aparılır. «Xruşşovka» tipli binalarda bərkitmə işləri üçün hökumətə müraciət hazırlanır.

***Şahnaz Bəylərqızı***

# Novella Cəfəroğlu: «Hökumət nə hüquq müdafiəçilərini vecinə alır, nə jurnalistləri»



Novella Cəfəroğlu

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu Beynəlxalq İnsan Haqları Günü ərəfəsində AzadlıqRadiosunun suallarını cavablandırdı.**

*- Novella xanım, dekabrın 10-da Beynəlxalq İnsan Haqları Günü idi. Hal-hazırda Azərbaycanda insan haqlarının vəziyyəti Sizi qane edirmi?*

**«NƏ SEÇKİLƏR SAXTALAŞDIRILAR, NƏ DƏ KORRUPSİYA OLAR...»**

- Yox, qane etmir. Sözsüz ki, qane etmir. Bizim indi ən önəmli məsələmiz siyasi məhbusların işidir. İkincisi, indi Azərbaycanda hər bir insanın hüququ pozulur. Söhbət mülkiyyət hüquqlarından gedir. Bununla bağlı bizdə minlərlə şikayət məktubu var. Onlardan «Muray» şirkəti ilə bağlı məsələ deyəsən yoluna qoyulur. Bunda da bizim monitorinq qrupunun xidmətləri oldu. Rəsmilərdən Fuad Ələsgərovla, Hacıbala Abutalıbovla görüşdük, hər yerə yazdıq. Yenə Azərbaycanda mülkiyyət hüquqları kütləvi şəkildə pozulur. Azərbaycanda qanunun aliliyi yoxdur. Məhkəmələr müstəqil deyil. İnsan haqlarına hörmət edilmir. Bu 3 məsələ Azərbaycanda öz həllini tapsa, nə seçkilər saxtalaşdırılar, nə də korrupsiya olar...

*- Cəmiyyətdə belə fikirlər də var ki, hüquq müdafiəçilərinin çoxu maddi baxımdan hökumətdən asılı vəziyyətə düşdüklərindən çox vaxt susmağa üstünlük verirlər. Belə qiymətləndirmə ilə razısınızmı?*

**«ÖZ HÖKUMƏTİNLƏ DANIŞIQLA ÇOX ŞEY ƏLDƏ ETMƏK OLAR, NƏİNKİ...»**

- Yox, mən yenə razı deyiləm. Hökumət nə hüquq müdafiəçilərini vecinə alır, nə jurnalistləri, nə də heç kimi. Bunu sizə açıq deyirəm. Biz neçə illərdir bu ölkədə hüquq müdafiəsi ilə məşğuluq. Sadəcə, başa düşmüşük ki, hökumət ilə danışmaq lazımdır. Sözsüz ki, beynəlxalq təşkilatların təsiri var. Ancaq biz bu əfvi, amnistiyanı kimdən almalıyıq? Hökumətdən. Öz hökumətinlə danışıqla çox şey əldə etmək olar, nəinki Ştrasserin Azərbaycana gəlişi ilə...

*- Yaxşı, deyirsiniz ki, hökumət heç kimi vecinə almır. Bəs onda danışıqların nə xeyri olacaq?*

- Baxma, hökumətdə də bəzi insanlar var, onları inandırmaq olar. Onları başa salmaq olar ki, bu addımları atmasanız bunun ölkəyə, məhz sizə ziyanı dəyəcək. Bax, biz Gürcüstan və Ermənistanla birgə federasiya təsis etmişik. Bununla göstərmək istəyirik ki, tək Azərbaycanda deyil siyasi məhbuslar. Gürcüstanda da, Ermənistanda da siyasi məhbuslar var. Bundan sonra Ermənistanda 5 siyasi məhbus azad edilsə, biz həmin məmurlara deyəcəyik ki, siz 10 siyasi məhbus azad etməlisiniz. Çünki bu, Azərbaycan haqqında müsbət imicin formalaşmasına xidmət edə bilər...

***Babək Bəkir***




Ən aktual, ən qaynar müzakirələr həftənin hər iş günü AzadlıqRadiosunun efirində. **Saat 17-dən 19-dək**. **AzadliqRadiosu.az** saytından verilişə qulaq asa və ya baxa bilərsiniz. Geciksəniz, AzadliqRadiosu.az saytında səs arxivindən verilişlərə sonradan da qulaq asa bilərsiniz.

Veriliş zamanı suallarınızı verin:
SMS: (+994 50 744 10 17)
Telefon: 436 – 77 - 41
Elektron ünvan: efir@azadliqradiosu.az



# Gənclər şəhərin mərkəzində aksiya keçiriblər

*Dekabrın 11-də Bakıda «Bizi dəm qazı ilə boğanlara etiraz» şüarı ilə aksiya keçirilib. «Dalğa» gənclər hərəkatının təşkil etdiyi aksiyada iştirakçılar tibbi maska geyinib və «Fəvvarələr» meydanından «Torqovı» kimi tanınan Nizami küçəsi ilə yürüş ediblər. Hərəkatın fəalı Pərviz Əzimov AzadlıqRadiosuna bildirib ki, son vaxtlar dəm qazından ölənlərin sayı artıb:* «Bunun bir səbəbi insanların təhlükəsizlik qaydalarına əməl etməməyidirsə, digər səbəbi də maye qazın keyfiyyətsiz olmasındadır. Biz bu aksiya ilə dövlətin diqqətini bu problemə yönəltmək istəyirik».

Aksiya iştirakçıları yürüş zamanı Bakı sakinlərinə də tibbi maskalar paylayıblar. Ətrafda çoxlu sayda polis əməkdaşı olsa da, aksiyaya müdaxilə olunmayıb. Yerli mətbuatın məlumatına görə, son aylarda 10-dan çox adam dəm qazından boğulub.

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



R.Denber: **«Azərbaycanda hüquq müdafiəçilərinin hüquqları pozulur»**

# Prezident fərmanı ilə nəşr olunmuş kitabları kim satışa çıxarıb?

**İlqar Heydərov iki ilə yaxındır ki, "Kitab Klubu"nun üzvüdür. Deyir ki, kluba üzv olmaqda məqsədi 150 cildlik dünya ədəbiyyatı seriyasından olan kitabları əldə etmək istəyidir: «Bizə bildirmişdilər ki, bu kitablar yalnız abunəçilərə satılacaq. Lakin bir neçə gün öncə həmin kitablardan satışda gördüm. Yəni hər bir alıcı pərakəndə şəkildə bu kitabları ala bilər. Yalnız bir fərq var idi. Biz kitabları 7 manatdan alırıq, lakin kitab mağazalarında həmin kitablar 10 manatdan satılır».**

**«ÇOX TƏƏSSÜFLƏR OLSUN Kİ...»**


Elçin Hüseynov

Bu kitabları almaq istəyənlər «Kitab Klubu»nda abunəçi olmalıdırlar və hər ay 150 seriyadan ən azı birini ala bilərlər. Hazırda klubda min abunəçi var. Yeni abunələr üçün də əlavə 250 yer ayrılıb. *"Kitab Klubu"nun əməkdaşı Elçin Hüseynov deyir ki, kitabların satışa çıxarılması onları da narahat edir. Bununla bağlı artıq aidiyyəti qurumlara məlumat veriblər:* «Biz abunə işinə başlayanda ən çox narahat olduğumuz məqam hansısa yolla kitabların qara bazara çıxarılma təhlükəsi idi. Çox təəssüflər olsun ki, bu, baş verdi».

Elçin Hüseynov deyir ki, abunə üçün hazırlanan kitablar fərqli üz qabığı ilə 1000 tirajla çap olunur. Kitabxanalar üçün hazırlanan kitablar isə 7 min tirajla çıxır.

**«SATILAN KİTABLAR HARADANDIR?»**

*Şəhərdəki bir neçə kitab mağazasına baş çəkdik. Bu kitabların bəzi mağazalarda gizli, bəzilərində isə aşkar şəkildə satılması halları ilə rastlaşdıq. Onları satışa aşkar çıxaran «Akademkitab» kitab evinin direktoru Əliağa Cəfərov:* «Siz indi deyirsiniz fikir verirəm. Bilmirəm bu kitabları haradan və necə almışıq. Amma mən bunu araşdıraram».

«Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilinə nəşr edilməsi haqda» prezident İlham Əliyev 2007-ci ildə sərəncam verib. Həmin sərəncama əsasən, dövlət kitabxanaları dövlət hesabına yeni nəşrlərlə təmin olunur. 150 cildlik dünya ədəbiyyatı kitabxanasından kitabların nəşr edilməsi haqda tenderdə «Şərq-Qərb» ASC qalib gəlib. Kitablar burada sifarişə uyğun olaraq nəşr olunur. *«Şərq-Qərb» ASC-nin Nəşriyyat şöbəsinin direktoru Rasim Müzəffərli deyir:* «Nəşriyyat kitabın satışı ilə məşğul olan qurum deyil. Kitab istehsal edir. O ki qaldı qanunsuz satışlara, onlar ancaq pulsuz olaraq ucqar kənd kitabxanalarına göndərilməli olan kitablardır. Çox təəssüf ki, həmin kitabları oxuculara vermək əvəzinə, satıb pulunu toyuqcücəyə verirlər».

**«BİZ BU KİTABLARI GÖZ BƏBƏYİMİZ KİMİ QORUYURUQ»**



Satışda olan kitablar

*Mədəniyyət və Turizm Nazirliyinin kitabxana sektorunun müdiri Lətifə Məmmədova isə nəşriyyatın iddialarını əsassız hesab edir:* «Bölgü ilə nə qədər kitab ayrılırsa, qaimə ilə həmin kitablar alınır. Ən ucqar filiala da getsəsəniz siyahı ilə həmin kitablar görərsiniz. Yəni biz mütəmadi olaraq filiallara, regiona gedirik, elə bir hala rast gəlməmişik ki, bazada olan kitablar olmasın. Özü də bu kitablar prezidentin sərəncamı ilə alınan kitablardır. Beşqat həmin kitabları göz bəbəkləri kimi qoruyurlar. Çox güman ki, həmin kitablar nəşriyyata daxil olarkən elə oradaca sifarişdən artıq nəşr olunub və gizli yolla bazara çıxarılıb».

**AZƏRBAYCANDA PİS TƏCRÜBƏ**

*Vəkil Yalçın İmanov kitabları bu şəkildə bazara çıxaranlar qanun qarşısında məsuliyyət daşıyırlar:* «Nəticə ondan ibarətdir ki, bu kitablar hansısa yolla satışa çıxarılıb və bunun məsuliyyətini nəşriyyat daşıyır. Azərbaycanda pis bir təcrübə var. Adətən məşhur, çox satılan kitab və qəzetləri nəşr edən nəşriyyatlar gizli yolla həmin nümunələrdən daha çox çap edirlər. Və sonradan gizli yolla həmin kitabları satışa çıxarırlar».

***Nüşabə Fətullayeva***

# Məleykə Abbaszadə: «Dərsliklərdə səhvlər var»

**«Müəyyən orta məktəb dərsliklərində problemlər var. Bu, bizi narahat edir. Əsas problem isə biologiya və tarix dərslikləri ilə bağlıdır». Bunu dekabrın 8-də keçirdiyi mətbuat konfransında Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) sədri Məleykə Abbaszadə deyib. Onun fikrincə, tarix dərsliyində səhvlərin olması Azərbaycan üçün həm siyasi, həm də mənəvi baxımdan yaxşı hal deyil.**

Səhvlər «Abituriyent» jurnalının yanvar ayında çap olunacaq 1-ci sayında göstəriləcək. «Dərsliklərdə bir-birinə zidd nəzəriyyələrin verilməsi düzgün deyil. Zidd nəzəriyyələr dərsliklərdə əksini tapdığı halda şagirdlərə digər nəzəriyyələrin mövcudluğu barədə məlumat verilməlidir», - M.Abbaszadə əlavə edib. Tədbirdə iştirak edən Təhsil Nazirliyi yanında Dərsliklərin Qiymətləndirilməsi Şurasının sədri Elmina Kazımzadə isə bildirib ki, nazirlik yalnız dərslikləri qiymətləndirir: «Dərsliklərdəki səhvlərə görə isə əsas məsuliyyəti həmin dərsliyi müsabiqəyə təqdim edən nəşriyyatlar daşıyır. Hazırda dərsliklər təkmilləşdirilir. Kurikuluma keçidlə əlaqədar tarix və biologiya dərsliklərinin yeniləşməsi gözlənilir».

***Trend***

# Akademik sükutu pozdu

## Rafiq Əliyev: «Dəyişməsək, dəyişən dünya bizi qəbul etməyəcək»


Rafiq Əliyev

**Rafiq Əliyev Azərbaycan Dövlət Neft Akademiyasında kafedra müdiri vəzifəsindən kənarlaşdırıldıqdan sonra özünə və «Ziyalılar forumu»na qarşı çıxışlara münasibət bildirib. Bu barədə ilk açıqlamasını o, AzadlıqRadiosuna verib:**

Mənimlə və «Ziyalılar forumu» ilə əlaqədar son zamanlarda baş vermiş olaylara münasibətimi bildirmək istərdim. Əvvəla onu qeyd edim ki, bu son bir ay müddətində gedən proseslərin başlıca səbəbi ziyalılar forumunda iştirak edən azad düşüncəli ziyalıların və bütövlükdə ictimaiyyət nümayəndələrinin fikirlərinə, təkliflərinə hakimiyyətin bəzi yüksək dairələrində tolerantlığın olmaması, hətta sərt təpki ilə qarşılanması, bayağı, ötən əsrin 37-ci illərinin ab-havasına köklənən anti-təbliğat kampaniyasının aparılmasıdır. Şükürlər olsun ki... cəmiyyətdə mənəvi dəyərlər, ziyalı ruhu ölməyib. Bir də onu qeyd etmək istərdim ki, həmişə olduğu kimi, bu yazımda da mənim leksikonum tərbiyəmə və intellektimə uyğun olaraq, bəzi «akademiklərin» və professorların planlaşdırılmış yazılarındakı leksikona adekvat deyil.

Yuxarıda göstərdiyim olayların əsas səbəbi «Ziyalılar forumu»nun fəaliyyəti ilə bağlı olduğundan bu məsələnin üzərində bir qədər ətraflı dayanmaq istərdim. 3-cü ildir fəaliyyət göstərən bu forum azad fikirli adamların, həmişə həqiqətin, xalqın, dövlətçiliyin yanında olan ziyalıların, bəzi məmurların fikrindən tam fərqli olaraq heç kimin «qrup»u olmayan könüllü toplantısıdır. Onun əsas missiyası ölkədə ictimai rəyin formallaşması, ölkənin sabit və dinamik inkişafı üçün zəruri olan mütərəqqi islahatların hazırlanıb həyata keçirilməsində Azərbaycanın vətəndaş cəmiyyətinin rolunu artırmaqdır.

...Ölkədə milli birliyə səsləyən ziyalılara təzyiq və antitəbliğat cəmiyyəti parçalamağa yönəlmiş uğursuz bir akt oldu. Açılan müzakirələr çox aydın göstərdi ki, sağlamlaşmaqda olan cəmiyyətimiz belə feodal çağırışları bu gün artıq qəbul etmir.

### CƏMİYYƏTİN İSLAHATLARA SOSİAL SİFARİŞİ VAR

Sonda cəmiyyətin bütün zümrələrinə öz düşüncələrimi çatdırmaq istərdim. Bu gün dünya qlobal miqyasda kataklizmlər məngənəsindədir, maliyyə-iqtisadi böhran, regional müharibələr, tək Şərqdə yox, Qərbdə də baş verən etiraz çıxışlarının başlanması şəraitində cəmiyyətimiz üçün dominant tələb milli birlik, bu hədəfə aparan milli barış yoludur. Düşünürəm ki, buna alternativ yoxdur. Bu hədəfə çatmaq üçün ölkənin bütün ictimai-siyasi zümrələri, iqtidarlı-müxalifətli hamı tolerant olmalıdır. Hamı bir-birini eşitmək, ictimai fikrə daha diqqətli olmaq bacarığına yiyələnməlidir, daha çox açıqlıq və şəffaflıq olmalıdır. Ziyalıların səsi eşidilməlidir, onları aşağılamaq yox, qorumaq lazımdır. Cəmiyyətin islahatlara sosial sifarişi var. Bütövlükdə dünyanın, o cümlədən Qərbin də dəyişməyə ehtiyacı var. Biz dəyişməsək, dəyişən dünya bizi qəbul etməyəcək. Cəmiyyətimizin bütün tərəflərində ədalət bir nömrəli atributa çevrilməlidir. Əvvəlki yazılarımda dediyim kimi, onsuz da dünya ədalətə hamilədir. Ədalətsiz cəmiyyət çürüməyə məhkumdur. Gəlin hamımız ədalətli, əxlaqlı cəmiyyət və Qarabağın xilası ideyası ətrafında birləşək.

# Müəllim prezidentdən 61 dəfə az maaş alır

*Azərbaycan prezidenti son bir həftədə müəllimlər, həkimlər, incəsənət xadimləri və bir çox sahələrdə çalışanların maaşlarını 10 faiz artırdı. Bu təbəqənin əməkhaqqı kifayət qədər nəzərəçarpan formada aşağı olduğundan artırılan 10 faiz də kiçik rəqəmlərlə ifadə edilir. Məsələn, müəllimlərin maaşlarına əlavə edilən 10 faiz aya 21 manat 30 qəpikdir. Çünki Dövlət Statistika Komitəsinin 2010-cu ilə dair rəsmi məlumatına görə, Azərbaycanda bir müəllimin aylıq orta maaşı 213 manatdır. Amma, məsələn, prezidentin maaşı 10 faiz artırılsaydı, dövlət başçısı dekabrdan başlayaraq ayda indikindən 1500 manat çox alacaqdı. Ona görə ki, onun aylıq maaşı 15 000 manatdır.*

Dövlət başçısının əməkhaqlarının artırılması sərəncamlarında 10 faizlik artım nadir faiz rəqəmlərindədir. Təkcə bu il prezident pensiyaların 40 faiz, polis və Fövqəladə Hallar Nazirliyi əməkdaşlarının maaşlarının 30 faiz artırılması barədə sərəncam imzalayıb. Müxalifət mediasında bunu prezidentin daha çox hüquq-mühafizə orqanlarına güvənməsi və onların dəstəyini özünə təmin etməsi kimi izah edirlər. Amma hökumət təmsilçiləri əslində müəllim və həkimlərin sayının çox olduğunu, buna görə onlara artırılan 10 faiz əməkhaqqının başqa təbəqələrə verilən 30 faiz artımdan büdcəni daha çox yükə saldığını deyirlər.

Bu cür arqumentlər çəkişməsindən daha düzgün nəticə çıxarmaq üçün rəsmi məlumatlar əsasında dövlət büdcəsindən kimlərin nə qədər maaş almasına diqqət ayırmaq olar. Yazıya əlavə edilmiş fotodiaqram elə bunu əks etdirir.

**KİM NƏ QƏDƏR MAAŞ ALIR (MANATLA)**



# Azərbaycanlı hüquq müdafiəçisi Türkiyədə döyüldü

**Azərbaycanın tanınmış hüquq müdafiəçilərindən Hüquq Maarifçiliyi Cəmiyyətinin prezidenti İntiqam Əliyev dekabrın 6-da İstanbulun Atatürk Hava Limanında gömrük işçiləri və polislər tərəfindən saxlanılıb, döyülüb və daha sonra ölkədən deportasiya edilib. İntiqam Əliyev dekabrın 7-də İstanbuldan Bakıya deportasiya edilərkən təyyarənin qalxmasına bir saat qalmış yenidən polisin təzyiqinə məruz qalıb. Bu haqda AzadlıqRadiosuna məlumat verən türkiyəli vəkil Halil Kocabaş bildirib ki, Türkiyə polisi ilə mübahisə zamanı İntiqam Əliyevin sözləri düzgün başa düşülməyib: "Polis onu itələyib, ya da bəlkə yumruqla vurub. Nəzarət kameralarının görüntüləri ilə bu aydınlaşdırılacaq. Bundan başqa, onu təhdid ediblər, deyiblər ki, daha betərini də edə bilərlər", - deyə Koçabaş bildirib və əlavə edib ki, hadisəyə İstanbuldakı vəkillər qarışıb, Türkiyə mediasını dəvət ediblər.**

Hadisənin detallarına toxunan Kocabaş deyib ki, dünən İstanbulda hava limanında hansısa sözün yanlış anlaşılmasına görə polis özünü təhqir edilmiş bilib və bir-neçə nəfər İntiqam Əliyevin üstünə düşüb, onu sürüyüb bir otağa salıblar: "Dörd saat mən ona yetişə bilmədim. Hətta mən çatanda xəbərdarlıq etsəm də, polis çığırıb-bağıraraq hərəkətlərini davam etdirdi. Onu da deyim ki, Türkiyə dövləti bizə yardımçı olmadı, dövlət idarələri tərsinə hərəkət edib hüquqi prosedurları əngəllədi, hadisənin böyüməsinə səbəb oldu", - deyə vəkil bildirdi.


İntiqam Əliyev

Vəkil həmçinin deyib ki, Türkiyə polisinin İntiqam Əliyevə təhqir və zorakılığına görə məhkəməyə müraciət edəcəklər: "Biz İntiqam Əliyevə qarşı törədilən hərəkətlərə görə bütün məhkəmə orqanlarında iddia qaldıracağıq".

İntiqam Əliyev özü AzadlıqRadiosu hadisə ilə bağlı danışıb:

- Mən Vilnüsdən ATƏT-in tədbirindən Bakıya dönürdüm. Pasport yoxlamadan keçirdim. Gömrük məmuru sənədə möhür vurandan sonra sənədi mənə normal şəkildə təqdim etmədi, ikrah hissi ilə onu stolun üstünə atdı. Mənim üstümə qışqırdı ki, götürüm. Mən onu sakitliyə dəvət etdim. Bundan sonra aramızda mübahisə yarandı. Az qala bütün aeroportun polisi töküldü üstümə. Hüquqşünas olduğumu dedim, əhəmiyyət verən olmadı. Buna etiraz etdim və polis rəisi ilə görüşməmi istədim. Rəhbərlik gəldi, amma o, məndən polis məmurundan üzr istəməyimi tələb etdi. Mən bundan imtina etdim, polislərin mənə qarşı kobudluq etdiyini bildirdim. Bildirdim ki, mən təhqir olunmuşam, məndən onlar üzr istəməlidirlər. Bundan sonra məni aeroportun zirzəmisinə apardılar və 4 saat orda saxladılar. Vəkil tələb etdim, vermədilər. Şikayət yazmaq üçün imkan da vermədilər. Sonradan qollarıma qandal vurub bütün aeroport boyu cinayətkar kimi apardılar. Buna etiraz edəndən sonra mənə vəkilimlə görüş verdilər. «Freedom House» təşkilatından mənə yazmışdılar ki, onlar bu barədə məlumatlar yayıblar. Artıq hava limanı ilə əlaqə saxlanılıb. Faktiki onların reaksiyasından sonra vəziyyət yumşaldı. Yoxsa belə başa düşdüm ki, mənim üstümə rahatca şər atıb tuta da bilərdilər. Dünən məni saxlayan polis əməkdaşlarına da dedim ki, Türkiyə artıq Azərbaycana oxşamağa başlayıb. Hətta təzyiqlər edirdilər ki, susum, danışmayım. Bir polis isə dedi ki, susmasan sənin başına oyun açacaqlar.

İntiqam Əliyev deyir ki, olaylar zamanı polislər yumruqla zərbələr endiriblər. Hətta deportasiya olunan zaman polis işçisi onu yenidən vurub və hədələyib. Bakıya dönərkən jurnalistlər onun sifətindəki əzikləri görüb. Hüquq müdafiəçisi axsayırmış və ağrıyan qolunu digəri ilə tuturmuş. Atatürk Hava Limanının polis bölməsindən isə AzadlıqRadiosuna bildirdilər ki, təhlükəsizlik kamerası hər şeyi qeydə alıb, polis kiməsə təzyiq etməyib:«Polis kobud davranmayıb, zatən kamera qeydləri var».

Lakin bu hadisə Azərbaycanda vətəndaş cəmiyyəti fəallarının böyük etirazına səbəb olub və dekabrın 10-da onlar tədbir keçirərək, Türkiyə hökumətindən baş verən hadisəni obyektiv şəkildə araşdırmağı, günahkarları cəzalandırmağı tələb ediblər.

# H.Klinton despotik rejimlərə kompyuter proqramı satanlara xəbərdarlıq edib



Hillari Klinton

ABŞ dövlət katibi Hillari Klinton internet və kompyuter proqramları hazırlayan firmaları xəbərdar edib ki, despotik rejimlər üçün «məhdudlaşdırıcı vasitə» satmasınlar. «Avtoritar hökumətlərə repressiya imkanlarının yaradılmasına xidmət edən proqramlar satılması barədə məlumatlar var. Şirkətlərin Suriyaya, İrana, əvvəl isə Liviyanın təhlükəsizlik strukturlarına satdıqları nəzarətçi proqramlardan insan hüquqlarının pozulması üçün istifadə olunacaq».

H.Klinton deyib ki, bəzi şirkətlər dissidentlər və ya internet fəalları barədə həssas informasiyaları hökumətə yönəldirlər.

# Российский Тахрир?


Задержание одного из участников протеста на Триумфальной площади 6 декабря

**The Guardian назвала протестные выступления в Москве "крупнейшими за последние годы". При этом газета пишет, что российские демонстрации вряд ли способны превратиться в силу, сравнимую с той, что родилась на египетской площади Тахрир – даже несмотря на то, что события в Каире и Москве, по мнению западных наблюдателей, очень схожи.**

Среди основных причин, почему это произойти не может, газета называет разрозненность российской оппозиции и относительную политическую пассивность граждан. В подтверждение этих слов Guardian приводит данные историка и сопредседателя незарегистрированной Партии народной свободы Владимира Рыжкова, согласно которым, цитирую, "85 процентов россиян не принимают участия ни в каких объединениях – не только политических, но и общественных или религиозных. В этой области царствует почти полная пассивность. Проблемы, волнующие людей, находятся вне политической повестки дня".

Издание называет движение в защиту своих прав на автодорогах –Общество Синих Ведерок, а также экологическое движение в защиту Химкинского леса пока что единственными общественными силами, способными объединить людей. О российской политической оппозиции газета пишет: Оценка возможности российских оппозиционных партий быть избранными, - неблагодарное дело. Во-первых, потому, что они склонны к расколам, а во-вторых, они не столь популярны. Не разрешили баллотироваться на выборах коалиции политических организаций ПАРНАС; партия "Правое дело", восставшая из пепла Союза правых сил, получила по предварительным данным всего 0,6 процента голосов, а самая выдающаяся оппозиционная партия – "Яблоко" – набрала всего 3,3 процента. Это вовсе не находящееся в ожидании своего часа движение "Братья-мусульмане".

Юлия Иофе - автор обширной статьи в журнале Foreign Policy, посвященной политической ситуации и общественным настроениям в российском обществе после выборов также делает вывод, что"Российский Тахрир" невозможен: Оппозиции - неорганизованной группе небольших организаций и отдельных доброжелателей - придется принять участие в тяжелом сражении, чтобы прийти к власти или хотя бы заставить "Единую Россию" поступиться хоть дюймом занятой ей земли.

Автор статьи в Foreign Policy заключает, что "Российский Тахрир" не может случиться не только потому, что в России нет политической или общественной силы, способной возглавить протестное движение, но еще и потому, что власти этого не допустили бы:

Если кто-то задается вопросом, каковы были планы Кремля в случае, если бы в России произошли такие же протесты, как и в Египте, то приведу следующее исчерпывающее, на мой взгляд, объяснение: Кремль утроил в этом году зарплаты военным, а вчера улицы Москвы патрулировала бронетехника.

***Александра Вагнер***
***(Радио Свобода)***

**На сайте РадиоАзадлыг - radioazadlyg.org:**

- **Медстрахование в Азербайджане**
- **Экс-агент зовет на помощь**
- **"Джентльмен" Асад**
- **Грузия и Азербайджан: сходства и различия. Часть 1**
- **"Неправильные" биология, история...**
- **Как распался СССР**
- **Стамбульские "приключения" адвоката Алиева**




# Проголосовало 146% избирателей!

Судя по графикам, показанным на телеканале "Россия-24" вечером после завершения голосования на выборах в Государственную Думу России, в Ростовской области проголосовало 146% пришедших на выборы избирателей, в Воронежской области 129%, в Свердловской всего 115%.

Российские блогеры недоумевают. Косяк ли это "девочки", вбивавшей результаты в телевизионный компьютер или территориальных избирательных комиссий, уже прибавивших процентов "кому надо", но в запарке забывших отнять голоса у "кого надо", каждый решает в меру своего понимания российской действительности.

***Юрий Тимофеев***


В Москве у Храма Христа Спасителя движение FEMEN провело акцию "Боже, царя гони!"

# FEMEN: "Боже, царя гони!"

Девушки кричали "Боже, царя гони!", ползли к храму, размахивали плетками и венками. Вокруг они разбросали кресты из прутьев. Охранники пытались пресечь акцию FEMEN или хотя бы одеть девушек. Но вызывали полицию и не давали девушкам прорваться к храму.

# Qubad İbadoğlu: "Prezident Neft Fondunu öz fondu kimi idarə edir"

*«Azərbaycanın dövlət büdcəsi Azərbaycanın indiki durumuna və idarəetmə sisteminə uyğun tərtib olunub».* AzadlıqRadiosunun «İşdən sonra» proqramında 2012-ci ilin büdcəsini müzakirə edərkən iqtisadçı-ekspert Nazim Məmmədov belə deyib. Onun fikrincə, yeni qəbul edilən büdcəyə real büdcə demək olar. Bununla belə, Nazim Məmmədov hesab edir ki, Azərbaycan iqtisadiyyatına hələ maliyyə resursu lazımdır: «Adicə kommersiya banklarına müraciət edənlərin strukturuna baxsaq, 100 nəfərdən 92-nə kredit vermək imkanı yoxdursa, bu o deməkdir ki, Azərbaycanda hələ resurs qıtlığı var.


Nazim Məmmədov

Sadəcə, bu resursların işlənilmə mexanizmi dəyişilməlidir. O baxımdan QHT-lər də, biz də deyirik ki, infrastruktur layihələrinə pul ayırmaq lazımdır. Amma onun xərclənməsində kifayət qədər problemlər var. Bu layihələrə pul ayrılmasa, vəsaitlər xaricdə saxlanacaq. Həmin xarici ölkələrin iqtisadiyyatında problemlər yaransa, o pullar da batacaq. Mən bir vətəndaş olaraq pulların burda xərclənməsini daha məqsədəuyğun hesab edirəm, nəinki gözləmə mövqeyini...».

*İqtisadçı Qubad İbadoğlu isə yeni büdcəni «bədxərc büdcə» adlandırır. Onun fikrincə, hakimiyyət neftdən kənar 10 milyard manatlıq büdcə formalaşdırsaydı, ona «səxavətli» demək olardı. Amma büdcəyə cəmi 6.5 milyard manat neftdən kənar daxilolma var. Ekspert hökumətin büdcəni bu səviyyədə saxlaya bilməyəcəyini deyir:*

«Azərbaycanda Neft Fondu Azərbaycan Respublikası prezidentinin öz fondu kimi idarə olunur. Bu fondun vəsaitlərinin təsdiqi, dəyişikliyi, hara, necə, nə qədər ayrılmasını prezident öz fərmanları, sərəncamları ilə həll edir. Biz istəyirik ki, fond qanunla idarə olunsun. 2012-ci ilin Neft Fondunun büdcəsinin 98 faizini xərcləməyə qərar verilib. Daxil olan vəsaitlərin 98 faizi xərclənəcək. Azərbaycanda neft gəlirlərinin idarə olunmasından əldə edilən gəlirlər ildən-ilə azalır. Məsələn, 3 il bundan əvvəl ildə 400 milyon qazanırdıq. İdarəetməyə isə 10 milyard vermişdik. 2010-cu ildə idarəetməyə 22 milyard vermişik, cəmi 195 milyon qazanılıb. Bunu onlar bacarmırlarsa, saxlayaq gələcək nəsillərə, bəlkə onların arasında ağıllı insanlar olacaq...».

**Verilişi tam olaraq AzadliqRadiosu.az saytından dinləyin.**

***Xədicə İsmayılova, Kamran Mahmudov***

# Əli Həsənov: «Əfv Komissiyası siyahı hazırlayır»

*«Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyası işləyir, siyahı hazırlayır».* Bunu «apa»ya açıqlamasında Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov deyib. Bununla belə, o, siyahının Azərbaycan prezidentinə nə vaxt təqdim ediləcəyi və növbəti əfv fərmanının nə vaxt imzalanacağı ilə bağlı məlumata malik olmadığını söyləyib. 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə əfv fərmanının imzalanacağı gözlənilir.




**Dəyərli oxucular!**

AzadlıqRadiosunun korrupsiya halları ilə bağlı maraqlı araşdırmalarını, xəbər və reportajlarını **AzadliqRadiosu.az** saytında **"Korrupsiometr"** bölümündə oxuyun. Səs yazılarını dinləyin, videolara baxın.


Anar Niftəliyev: «Polis işi araşdırmaq istəmir»

# Jurnalisti övladları ilə hədələyiblər

*«Polis bölmələri işi bir-birinin üstünə atırlar. Nərimanov Rayon Polis İdarəsinin 18-ci bölməsi deyir işə 17-ci bölmə baxmalıdır, 17-dəsə deyirlər ki, 18 baxmalıdır. Belə başa düşürəm ki, polis işi araşdırmaq istəmir. Artıq onlara göstəriş verilib». Əvvəllər "Xural" qəzetində işləyən kollektivin buraxdığı «ASİ» qəzetinin redaktoru Anar Niftəliyev belə deyir. Dekabrın 6-da naməlum şəxs redaktorun və qəzetin təsisçisi Nurəddin Xocaya zəng vuraraq özünü və uşaqlarını təhdid etmişdi. Polisə müraciət edən Anar Niftəliyevə həmin zəngin taksofondan edildiyi deyilmişdi. Amma az sonra Nərimanov Rayon Polis İdarəsinin 18-ci bölməsindən bildirilmişdi ki, taksofon başqa ərazidə yerləşdiyi üçün işi 17-ci bölməyə göndərirlər: «Bu gün zəng vurdum 17-ci bölməyə. Ordan deyirlər ki, iş onlara hələ daxil olmayıb. Amma sonra da arxayın edirlər ki, narahat olmayın, yaxın 10 günə gələcək. Təsəvvür edirsizmi? On günə...»*

Amma bu hamısı deyil. Redaktora daha sonra deyiblər ki, işi 18-ci polis bölməsi də araşdırmalıymış: «Onların sözlərinə görə, taksofon başqa ərazidə yerləşsə də, hadisəni araşdırmaq polisin borcu idi. Ona görə 18-ci bölmənin əməkdaşları ərazidəki kameraları götürüb baxa bilərmiş. Nə deyim? Artıq ötür-ötür oyunu başlayıb. Yəqin ki, işi açmaq niyyətləri yoxdur».

Anar Niftəliyev baş verənlərlə bağlı Daxili İşlər naziri Ramil Usubova müraciət edib. DİN-in mətbuat xidmətinin şöbə rəisi Orxan Mansurzadə isə AzadlıqRadiosuna deyir ki, vətəndaş polisə müraciət edibsə, mütləq araşdırılıb onlara cavab veriləcək.

***Şahnaz Bəylərqızı***

# Nazir oğlunun 2,4 milyon dollarlıq ödənişi

## Anar Məmmədov ABŞ-da Azərbaycan lobbisi yaradır



Anar Məmmədov

**«Vaşinqtonda Ermənistan-Amerika lobbisinə qarşı yeni Azərbaycan qeyri-kommersiya təşkilatı yaradılıb. Azərbaycan Amerika Alyansının məqsədi Vaşinqtonda nüfuzlu dostlar qazanmaqdır». ABŞ-ın «The Hill» internet dərgisi yazır ki, qrup ilk məclisi dekabrın 6-da Kapitolidə Ehtiyatda olan Zabitlər Assosiasiyasında keçirib. Tədbirdə bir sıra deputatlar, o cümlədən Azərbaycanın Birləşmiş Ştatlardakı səfirinin də iştirakı gözlənirdi.**

**ANAR MƏMMƏDOV VƏ XƏYAL ŞƏRİFZADƏ**

Azərbaycan Amerika Alyansını gənc azərbaycanlı biznesmen, Nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədov yaradıb. Alyansın məqsədi Azərbaycan-ABŞ arasında enerji, milli-təhlükəsizliyə əsaslanan münasibətləri qabartmaqdır. A.Məmmədov «The Hill»ə deyib ki, öz ölkəsini sevir və ona kömək etmək üçün borcunu vermək istəyir: «Məncə, Alyans iki ölkəni birləşdirə bilər. Məncə, Amerika Azərbaycanın ən böyük dostlarından biridir».

Alyansın sədri Xəyal Şərifzadədir. O, «Bank of Azerbaijan»ın keçmiş sədridir. Şərifzadə həmçinin «ZQAN Holdinq»in direktorlar şurasının üzvüdür.

**2,4 MİLYON DOLLARLIQ MÜQAVİLƏ**

ABŞ Ədliyyə Departamentinin sənədlərinə əsasən, Alyans birillik fəaliyyət üçün «Fabiani&Co» lobbiçilik firması ilə 2.4 milyon dollar dəyərində müqavilə bağlayıb. Bu işə Jim Fabiani başçılıq edir. «The Hill» yazır ki, bu qurum on illərdir Vaşinqtonda lobbiçilik işi quran Ermənistana çatmaq və ötüb keçmək istəyir. Güman ki, lobbiçilər Azərbaycanın BMT-nin Təhlükəsizlik Şurasında üzvlüyünü, NATO-nun Əfqanıstandakı işinə yardım etdiyini qabardacaqlar.

Dərgi Azərbaycanın enerji resursları ilə zəngin olduğunu, ancaq insan haqlarının vəziyyətinə görə tənqid edildiyini bildirir. ABŞ Dövlət Departamentinin 2010-cu il hesabatında qeyd olunur ki, Azərbaycanda seçkilər saxtalaşdırılır, siyasi səbəblərdən həbslər baş verir, mətbuat sıxışdırılır.

Lobbiçilərin daha bir işi isə 1992-ci ildə Konqresin qəbul etdiyi Azadlığa Dəstək Aktı ilə bağlı olacaq. Həmin Akta 907-ci düzəliş Azərbaycan hökumətinə birbaşa yardımı qadağan edir. Alyans bu düzəlişin ləğvinə də çalışacaq.

Alyans icraçı direktor axtarması barədə elan verib. Amma «The Hill» yazır ki, Vaşinqtonda oturuşan kimi, onlar erməni-amerikan rəqiblərinin kəskin münasibəti ilə üzləşə bilərlər.

# Prezidentin qızları 200 milyon dollar ziyana düşüblər



Gülnarə Kərimova 63-cü Kann Film Festivalında, 22 may 2010

**İsveçrədə çap olunan "Bilan" biznes dərgisi hər il 300 ən varlı adamın siyahısını dərc edir. Son beş ildə jurnalın tərtib etdiyi siyahılarda Özbəkistanın prezidenti İslam Kərimovun böyük qızı Gülnarə Kərimovanın da adı düşürdü. Bu il isə ora Kərimovun kiçik qızı, Özbəkistanın UNESCO-dakı səfiri Lola Kərimovanın da adı əlavə olunub. Gülnarə və Lola bacılarının hədsiz var-dövlətə sahib olmaları əslində təzə xəbər deyil. Yeni olan budur ki, jurnalın dekabrın 2-də yaydığı hesabata görə, bu bacılar son bir ildə xeyli pul itiriblər. Luzannada çap olunan rusdilli "Nasha Qazeta" yazır ki, Kərimova bacıları son bir ildə azı 200 milyon dollar ziyandadırlar. Bunun səbəbi haqqında məlumat yoxdur.**

"Bilan" jurnalına görə də bacılar 2011-ci ildə biznesi ən çox zəifləyən supervarlılar siyahısındadırlar. Amma dərgi hesab edir ki, itkiləri olsa da, bu qadınların əlində hələ də azı 1 milyard dollar var. Bu rəqəm dərhal sual yaradır ki, prezidentin qızlarında bu qədər pul hardandır? Bunun bir hissəsi ola bilər ki, Kərimov klanının sahib olduğu Zeromax şirkətindən qazanıla bilər. Özbəkistanın ən böyük özəl şirkəti olan Zeromax Kərimov ailəsinin və onlara yaxın olan adamların ən böyük gəlir mənbəyi hesab edilir. Özbəkistanda iqtisadiyyatın bütün sahələrinə nəzarət edən bu şirkəti məlum olmayan səbəblərdən 2010-cu ildə dövlət alıb.

"The Guardian" Özbəkistandakı ABŞ diplomatlarının şəxsi qiymətləndirmələri kimi yazırdı ki, Gülnarə Kərimova bu ölkədə az qala hamının zəhləsi gedən bir şəxsdir. WikiLeaks saytı vasitəsilə yayılan səfirlərin gizli məktublarına istinad edən qəzet yazır ki, Özbəkistanda Gülnarəni oğrular baronu kimi xarakterizə edirlər. İddiaya görə, bu xanım ona boyun əyməyən biznes sahiblərinin hamısını dövlət aparatı vasitəsilə cəzalandırır. Gülnarə həm də bəzi kriminal dairələrlə əlaqədə ittiham edilir.

Lola 14 milyon dollarlıq malikanəyə niyə 46 milyon verib?

Bu yaxınlarda Gülnarənin kiçik bacısı Lola da Britaniya mətbuatına mövzu olub. O, Cenevrə yaxınlığında Britaniya İşçi Partiyasının maliyyə dəstəkçisi Andrew Rosenfeldın 14 milyon dollara aldığı malikanəyə 46 milyon dollar ödəyərək sahib çıxmışdı.

# "Qorxma, pullar veriləcək"

## 11 milyonluq "Qorxma mən səninləyəm - 2" filmi 2 milyona çəkilir...



*Bu ilin avqustundan çəkilişi gedən "Qorxma mən səninləyəm - 2" bədii filminin heyəti qonorarlarını almaqda problemlə üzləşib. Azərbaycan və Rusiya kinematoqrafçılarının birgə istehsalı olan filmin maliyyəsi də iki ölkədəndir. Filmə çəkilən aktrisalardan Nuriyyə Əhmədova isə bir neçə aydır qonorarlarının gecikmə səbəbini bilmir: "Mənimlə bağlanan müqavilədə yazılır ki, bu adama gündəlik filan qədər verilməlidir. Məndə 6 gün idi. Sadəcə, məni də çox maraqlandırır ki, 5 aydır niyə ləngidirlər qonorarları. Bu dəqiqə Azərbaycanda aktyorlar çox pis vəziyyətdədir. Aktyora həmişə az pul verirlər. Nəsə gələndə aktyora deyirlər ki, ya pul yoxdur, ya da bu qədərdir".*

Filmdə epizodik rolun ifaçısı Həmidə Ömərova da eyni taleyi paylaşır: "Filmdə rolum çox balaca idi, epizodik roldur. Cəmi iki səhnəm var. Mən axıra yaxın çəkilmişəm. 4 gün çəkilmişəm. Hələ mən də qonorarımı almamışam. Mənə demişdilər ki, film qurtarandan sonra pul olacaq".

**"ÖDƏNİŞLƏR GEDİR"**

"Azərbaycanfilm" kinostudiyasının direktor müavini, "Qorxma mən səninləyəm" filminin prodüseri Nadir Əliyev deyir ki, bir qisim öz məvacibini artıq alıb: "Dövlət tərəfindən vəsait hissə-hissə verilir, verilən kimi də ödənilir. Artıq ödənişlər gedir. Bütün dünyada pulun olmamağı səbəbindən filmlər buraxılır da, dayanır da, konservasiya olunur. Bu, normal bir hadisədir, normal bir vəziyyətdir. Hamının da pulu yavaş-yavaş verilir. İdmançılardır, rəqqasələrdir, onların ödənişi artıq gedib".

**11 MİLYON AYRILMALI İDİ, 2 MİLYON AYRILIB**

Sözügedən filmə ayrılan maliyyə vəsaiti ilə bağlı suallarımızı dəqiq cavablandıran olmadı. Nadir Əliyev deyir ki, nəzərdə tutulan 11 milyon dollarlıq büdcə 5 dəfə azaldılıb: "Onu siz Mədəniyyət Nazirliyindən öyrənə bilərsiniz, amma filmin çox cüzi büdcəsi var. Hamı bu gün yanlış bir fikir yayıb Azərbaycanda. Yuli Qusman söyləyib ki, filmin büdcəsi 11 milyon olacaq. Yəni bu filmi çəkmək üçün 11 milyon ayrılmalıdır. Amma bu günə kimi cəmi 2 milyon yarım pul ayrılıb".

Mədəniyyət Nazirliyinin məlumatına görə, Azərbaycan hökuməti film sənayesinə ümumilikdə ildə 6,5 milyon manat pul ayırır. Amma "Qorxma, mən səninləyəm"in büdcəsi barədə məlumat açıqlanmadı.

**"MÜQAVİLƏ VARSA, PUL ÖDƏNİLƏCƏK"**

Aktyorların qonorarlarının verilməməyinə gəlincə, nazirliyin kinematoqrafiya şöbəsində sektor müdiri Yusif Şeyxov burda qeyri-adi heç nə olmadığını deyir: "Güman etmirəm ki, kimsə kimisə aldatmaq fikrindədir. Müqavilə varsa, pul ödəniləcək".

***Durna Səfərli***

# Bulvarın yeni daş plitələri yenidən dəyişdirilir

*Dənizkənarı Bulvarda bir il əvvəl döşənmiş daş plitələr indi qoparılır və yeniləri ilə əvəzlənir. İşləri Bakı Bulvar İdarəsi görür. Bu səbəbdən bir neçə gündür bulvarın «Azneft» meydanından «Kukla» teatrına qədər ərazisinə giriş bağlanıb. İndi döşənilən plitələr forma, qalınlıq və qiymət baxımından əvvəlkindən fərqlənir. Fəhlələr bu dəyişikliyin bütün bulvar ərazisini əhatə edəcəyini desələr də, Bulvar İdarəsinin rəis müavini Nazim Məcidov bunu təkzib edir: «Daşların dəyişməsi o qədər də böyük ərazini əhatə etmir. 500 metr ərazini əhatə edir. Bu işlər bir adamın qərarı ilə olmur. Bulvar İdarəsi kollegial orqandır».*

**«TORPAĞA BASDIRILAN BÜDCƏ PULLARI»**

Təmir işlərini kənardan seyr edən sakinlər isə görülən işləri «büdcə pullarının torpağa basdırılması» kimi qiymətləndirirlər. Bunu iki ağsaqqal deyir.

**«BU, İLİN SONUNA QALAN BÜDCƏ PULLARININ MƏNİMSƏNİLMƏSİNƏ OXŞAYIR»**

İqtisadçı Natiq Cəfərli isə düşünür ki, bulvarda aparılan «döşəmə-qoparma» əməliyyatı daha çox ilin sonuna qalan büdcə pullarının mənimsənilməsinə hesablanmış addıma oxşayır. İqtisadçıya görə, adətən dövlət qurumlarına büdcədən ayrılan pullar xərclənməyəndə, o, yenidən geri büdcəyə qaytarılmalıdır. Bəzi qurumlar isə həmin pulu geri qaytarmamaq üçün müxtəlif işlər həyata keçirirlər.



2010-cu ildə dövlət büdcəsindən Dənizkənarı Bulvar İdarəsinə 12 milyon manat pul ayrılıb.

2012-ci ilin büdcəsində isə Bulvar İdarəsinə ayrılacaq vəsait göstərilməyib. Gələn ilin büdcəsində, Dənizkənarı Bulvar da daxil olmaqla, 6 layihəyə 20 milyon 500 min manat vəsait nəzərdə tutulub.

**Reportajın tam mətnini AzadliqRadiosu.az saytında oxuyun.**

***Maarif Çingizoğlu***

**"Qaynar Xətt"** dinləyici şikayətləri əsasında hazırlanan verilişdir. Sizin də şikayətiniz və ya məlumatınız varsa, qaynar xəttə zəng edin. **Telefon 436 77 41.** Bizə zəng edənlər mütləq koordinatlarını (ad, familiyasını və telefonunu) saxlamalıdır. **AzadliqRadiosu.az** saytına daxil olmaqla da verilişlə əlaqə saxlaya bilərsiniz.

Aparıcı Esmira Cavadova.

E-mail: esmer_alda@mail.ru





# Neft sektorunu «yıxmağa» tələsən hökumət

**Hökumətin proqnozları**

2012-ci ildə neft və qaz sektoruna 4 milyard 268 milyon manat investisiya yatırılması proqnozlaşdırılır. Qeyd etmək lazımdır ki, bu vəsait ümumilikdə ölkə iqtisadiyyatına yönəldiləcək investisiyaların 31,6%-ni təşkil etməlidir. Gələn il təqribən 2 mlrd. manat vəsait təkcə "Azəri-Çıraq-Günəşli" yataqlarının işlənməsi layihəsi çərçivəsində xərclənəcək. Bunun da əsas hissəsi "Çıraq" yatağında quraşdırılacaq yeni hasilat platformasının tikintisinə yönəldiləcək.

Belə ki, tikinti işlərinin əsas hissəsi 2012-ci ildə yekunlaşmalıdır ki, 2013-cü ildə sözügedən platformanı dənizdə quraşdırıb ondan neft hasilatına başlamaq mümkün olsun. Bunun sayəsində 2014-cü ildə AÇG-də neft hasilatının "pik" həddinə (bəzi məlumatlara görə 44 mln. tonadək) çatdırılması proqnoz edilir.

Dövlət Neft Şirkətinin (SOCAR) ölkəiçi layihələri də kifayət qədər kapitalyönümlüdür. Belə ki, əsas işlərdən biri ölkənin qazlaşdırılması ilə bağlı dövlət proqramının yerinə yetirilməsi olacaq. SOCAR rəsmilərinin açıqladığına görə, "Azəriqaz" onların tabeçiliyinə keçdikdən sonra aparılan modernizasiya işləri nəticəsində təbii qazın nəqli və paylanması vaxtı texniki itkilərin qarşısını nə az, nə çox – düz 37% almaq mümkün olub və yaxın iki ildə bu göstəricini minimuma endirmək bir məqsəd kimi qarşıya qoyulub. Buna isə milyard manatdan çox investisiya lazım olacaq.

**Hökumətin arzusu**

Hökumətin başqa bir proqnozu isə yaxın 4 ildə getdikcə neft sektorunun ölkənin ümumi daxili məhsuldakı (ÜDM) payının azalması və onun yerinin qeyri-neft sektoru ilə əvəzlənməsidir. Hökumət bəyan edir ki, 2010-cu ildə neft sektorunun ÜDM-dəki payı 48,5%-dirsə, aparılacaq siyasət nəticəsində 2015-ci ildə 29,3%-ə düşmək ehtimalı var.

Bu proqnozları da tərtib edərkən 2013-cü ildən neftin qiymətinin artıq 80 dollardan aşağı düşəcəyi ehtimalından çıxış edildiyi gözə çarpır. Həm də hökumət sanki 2013-cü ilin sentyabrından "Çıraq" yatağında II hasilat platformasının işə düşəcəyini bilərəkdən nəzərə almır.

Nəzərə alınmayan daha ciddi bir arqument var. O da "Şahdəniz" yatağının "Mərhələ-1" layihəsi üzrə qaz hasilatının 2013-cü ildən artması ola bilər. Belə ki, hazırda bu yataqdan ixrac edilən qazın həcmi cari ildə 5 mlrd. ətrafında olsa da, Türkiyə tərəfi müqavilə şərtlərinə əməl etdiyi təqdirdə (tranzit ödəmələri də nəzərə alınmaqla) ixrac həcmi 7 mlrd. kubmetrədək yüksələ bilər.

Başqa bir tərəfdən, hökumət ÜDM-də qeyri-neft sektorunun payının real artımını, təbii ki, Neft Fondundan ayrılan vəsaitlərin tikinti və infrastruktur layihələrinə yönəldilməsi ilə görür (cədvələ diqqət yetirmək kifayətdir) və belə bir arzu ilə yaşayır ki, bunun nəticəsində yaxın gələcəkdə ölkədə xidmət sektoru böyük sürətlə inkişaf edəcək. Ancaq bir var xidmət obyekti açmaq, bir də var onu işlətmək. Məncə, bu məfhumlar arasında böyük fərq var: hətta son 5 il ərzində belə bu sahədə dayanıqlı biznes qurumları çox azdır və onların hələ ki, ÜDM-ə yetərli töhfə vermək şansları zəifdir.

Adicə bir misal, Azərbaycanda hər adamın mobil telefonu var və mobil rabitədə monopoliya yoxdur. Bu sahənin gəliri 2010-cu ildə cəmi 782 mln. manat təşkil edib ki, bu da ÜDM-in 1,8%-dir. Azərbaycanda turistlərin yerləşdirilməsi və iaşə xidmətlərinin ÜDM-də payı 1,3%, ticarət obyektlərinə xidmətlər və nəqliyyat vasitələrinə təmir xidmətlərinin payı isə (bu, böyükçeşidli bir sahədir) 6,7%-ə çatır.

**Faktlar tam başqa şeylər deyir**

Hökumətin öncəgörmə siyasətindəki qüsurlardan ən böyüyü isə budur ki, 2013-2017-ci illər "Mərhələ-2" layihəsi üzrə infrastrukturla birlikdə təqribən 22 mlrd. dollar əsaslı kapital qoyuluşu olacaq ki, bunun da 90%-i Azərbaycanda xərclənəcək. Bundan əlavə, 2013-2020-ci illərdə Qaradağ rayonunda qiyməti 13-14 mlrd. dollar olacaq neft-kimya kompleksinin tikintisi həyata keçiriləcək.

2012-ci ildə "Azəri-Çıraq-Günəşli" yataqlarının dərin qatlarındakı qaz laylarının işlənməsi üzrə bp şirkəti ilə yeni PSA tipli müqavilənin bağlanması planlaşdırılıb. Bu layihənin gerçəkləşdirilməsi üçün 2017-ci ilədək ən azı 6 mlrd. dollar vəsait xərclənəcək. Təbii ki, 2021-ci ilədək "Abşeron" yatağının işlənməsi və buradan hasil edilən qazın yeni boru kəməri ilə dünya bazarına çıxarılması məsələsi var gündəmdə və bu layihə də 10 milyard dollardan az qiymətə başa gəlməyəcək. Mən hələ "Ümid" və "Babək" kimi kapitalyönümlü layihələrdən danışmıram.

Belə olan tərzdə hansı əsaslarla qeyri-neft sektorunun neft sektorunu üstələməsindən söhbət gedə bilər?

## İnvestisiyalar cədvəli (mln. manatla):

| | 2012-ci il | 2013-cü il | 2014-cü il | 2015-ci il |
|---|---|---|---|---|
| Neft-qaz sektoru | 4268,0 | 5477,6 | 5574,7 | 5053,2 |
| Qeyri-neft sektoru | 9224,7 | 9728,3 | 11101,4 | 12425,9 |
| Büdcədən investisiyalar | 7452,8 | 7581,0 | 7954,8 | 8328,9 |
| Özəl sektordan investisiyalar | 6039,8 | 7624,9 | 8721,3 | 9150,2 |

***İlham Şaban***
***(Neft Araşdırmaları Mərkəzinin rəhbəri)***

# Milyonçu Dadaşovun nəticələri niyə Bakıdan qaçıblar?


Kəmalə və Ofeliya Dadaşovalar

### "BAKIDAN QAÇMIŞAM"

*Bu sözləri AzadlıqRadiosunun «Can Bakı» proqramına Bakı milyonçusu Dadaşovların Belçikada yaşayan davamçısı Kəmalə xanım Dadaşova söylədi.*

Bakıda, Azərbaycanda baş verən müəyyən səbəblərə görə ölkəni tərk etməyə məcbur olduğunu deyən Ofeliya Dadaşova: «Bakıda qalsaydım, indi yaşamırdım. Yaşasaydım da, ağlım işləmirdi, başımı itirmiş olardım»-fikrinə gəldi.

*Nədən qaçdınız? Aparıcının sualı belə cavablandı:* «Bakıda baş verən dəhşətli dəyişikliklərdən, babalarımın sökülən mülklərindən, diqqətsizlikdən, biganəlikdən». Ofeliya xanım Belçikaya çox ağır vəziyyətdə getdiyini də bildirdi: «Həkimlər dedilər ki, stress keçiribsiniz. Bütün xəstəliklər ondan qaynaqlanıb».

Ofeliya xanım Belçikada öz evlərində «mini diaspor» yaratdıqlarını da söylədi: «Belçikada 120-dən artıq millət yaşayır. Biz də hamıyla dostluq etməyə çalışırıq. Səfirliyin gecələrində də iştirak edirik. Bakıdan gətirilən kitabları yığıb dostlarımıza paylayıram. Bakıya yolum düşəndə disklər alıb aparıram. Əsl müğənnilərimizi orada təbliğ edirəm».

### NƏ QƏDƏR İŞSİZLİK OLAR?

*Kəmalə Dadaşova da doğulduğu ölkədə yaşamağın çətinliyindən danışdı:* «Cəmiyyətin 99 faizi yaşayışından narazıdır. Mən özümdən deyim. Nə qədər işsizliyə dözmək olardı? Adi məktəbə düzəlmək üçün 10 min manat rüşvət istəyirdilər».

*Ofeliya xanım təzəcə başlarına gələn bir əhvalatı danışdı:* «Gözləmədiyimiz halda yaxın bir adamımız dövlət xəstəxanasına düşdü, əməliyyat olundu. Açıq-aşkar ona qiymət oxudular. Heç nədən çəkinmədən! Əməliyyat pulu da ödəndi, 5-6 gün xəstəxanada yatdığı üçün xidmət və dərman pulu da. Öyrəndim ki, tibb bacıları ayda 120 manat maaş alırlar. Onu eşidəndə, mən necə pul verməyim? Axı, axşamdan-səhərəcən xəstələrin başında dururlar. Amma o, dövlətdən zəhmətinin tam haqqını alsaydı, inanıram ki, özünü rüşvətə satmazdı».

### CƏNAB PREZİDENT! MÜRACİƏTİ NİYƏ OXUMADINIZ?

*Ofeliya xanım ötənlərdə 74 nəfərin imzasıyla prezidentə müraciət imzaladığından danışdı və o müraciətə imza atanlardan bəzisinin artıq dünyasını dəyişdiyini kədərlə qeyd etdi:* «5-6 gün əvvəl AZTV-yə baxırdım. Gördüm prezident təzə gələn səfirləri qəbul edir. Onların arasında İsveç səfiri də vardı. Ekrana üz tutub dedim: Cənab prezident! Mənim Azərbaycanın 74 tanınmış ziyalısıyla imzaladığım müraciəti oxusaydınız, indi İsveç səfirinə deyə bilərdiniz ki, Nobeldən qabaq sənin məmləkətini bakılı milyonçular - Dadaşovlar fəth ediblər və sənin padşahının 1-ci dərəcəli ordenini alıb gətiriblər. Axı, bütün bunları faktlarla yazıb sizə göndərmişdik...»

*O.Dadaşova 85 manat pensiya alan Azərbaycan vətəndaşının halına çox acıdığını da bildirdi:* «Kommunal xidmətlərin haqqını ödəyəndən sonra özü nə yesin bir ay? Məmur! Gəl, sən özün bir aya 85 manatla yaşa görüm, necə yaşayırsan?!

### BELÇİKADA KEF İÇİNDƏ YAŞAYIRLAR!

*Ofeliya xanım yaşadığı ölkənin qaçqınının da yaşayışından söz açdı:* «Gör necə dövlətdir ki, qaçqınına da, xəstəsinə də xüsusi diqqət yetirir. Özü də, bunu nefti-qazı olmayan bir dövlət edir. İşsizinə 600-800 avro pul verir ki, dolan...»

### MƏNİ NƏ DAŞA DÖNDƏRİB?

*Bu illərdə Azərbaycan insanının dərdindən daşa döndüyünü söyləyən Ofeliya xanım Belçikadakı yaşayışı görəndən sonra gilə-gilə göz yaşı axıtdığını dedi:* «İstəyirəm mənim millətim də elə yaşasın. Həmişə deyirəm ki, kaş Vətənimin başçıları bura gələydilər, buradakılar da ora. Bir dəfə eşitdim ki, bizim icra başçıları ora gəliblər- təcrübə mübadiləsi üçün. Dedim, hansı təcrübələrini bölüşəcəklər- torpaq satmaqlarını, ev satmaqlarını, millətin qanını sormaqlarını- bunları öyrədəcəklər belçikalılara?»

**Bu söhbətin davamına AzadliqRadiosu.az saytında "Can Bakı" da qulaq asa bilərsiniz.**

***Sevda İsmayıllı***




Sevda İsmayıllı hər həftənin çərşənbə günü, günorta **saat 12-də** efirə bir sualla başlayır: **"Bir "Can Bakı" deyərsizmi?"**... Bakının ictimai və mədəni yaşamı, düşüncə və əyləncə həyatı haqda, maraqlı şəxslərin iştirakı ilə keçirilən bu proqramın təkrarları da həftə boyu AzadlıqRadiosunun efirində səslənir. **"Can Bakı"nı AzadliqRadiosu.az** saytında da dinləyə və oxuya bilərsiz.

# "Azadlıq" FM – yeni layihə davam edir




Cümə axşamları saat 23-dən gecəyarısınadək AzadlıqRadiosunun yeni layihəsi Facebook məkanında baş verən maraqlı olayları diqqətinizə çatdırır, sosial şəbəkələrdəki yeniliklərlə sizi tanış edir, Facebookda xüsusi fəallığı ilə fərqlənən şəxslər ilə söhbətlər aparır. Bu yayım eyni vaxtda AzadlıqRadiosunun Facebook Fane Pageində də yayımlanır ki, Facebook istifadəçiləri canlı olaraq şərhlər yaza bilsinlər. "Azadlıq"FM-in arxiv səhifəsi də var.

# Armen Ciqarxanyan: "Azərbaycanla danışıb razılığa gəlmək lazımdır"


Armen Ciqarxanyan AzadlıqRadiosunun Moskva bürosunda. 16 aprel 2010

**Moskvada yaşayan məşhur erməni aktyoru Armen Ciqarxanyanın Ermənistan mətbuatına müsahibəsi**

- Bunu açıq şəkildə və vicdanla deyirəm. Eşitmişdim ki, Ermənistan hökuməti Türkiyə ilə ünsiyyət qurmağa çalışır. Buna çox sevinmişdim. Niyə? Misal çəkəcəm. Biz Yerevana qastrola getməliydik. Təyyarə ilə gedə bilmədik, dekorasiya böyük idi, 3 metr kəsmək lazım idi. Bir alman şirkəti tapdıq. Həmin şirkət dekorasiyaların daşınması ilə məşğul olur. Soruşduq ki, necə aparacaqsız? Dedilər - çox asan, Ermənistana Türkiyədən gedəcəyik. Belə də etdilər. Bu nə deməkdir? Yəni hansısa işi görmək istəyi vacibdir. Danışmaq, mülahizələr yürütməklə iş düzəlmir. Təkrar edirəm. Səmimi deyirəm - mən yaxşı erməniyəm, Ermənistanı da sevirəm - eşidəndə ki, Ermənistanın indiki hakimiyyəti Türkiyə ilə münasibətləri yoluna qoymaq istəyir, birlikdə futbola baxmağa gedir... sevindim.

**ÇÜNKİ ONLAR BİZİM QONŞULARIMIZDIR**

**- Armen Borisoviç, keçən il sizin Azərbaycanın media orqanlarından birinə verdiyiniz müsahibə Ermənistanda birmənalı qarşılanmadı. Müsahibədə Qarabağ probleminin həllindən söhbət gedirdi. Faktiki olaraq Qarabağ və onun ətrafındakı...**

- Mən sənin sözünü kəsirəm. Çünki mən həyatım boyu Qarabağ problemi ilə məşğul olmağa risk etmərəm. Amma mən bir şeyi bilirəm. Öz gözlərimlə görmüşəm. Bunu lentə almışdılar. Qarabağ məsələsi ilə bağlı bir qocanı döymüşdülər və onun ağzından qan gəlirdi. O ağlayır və anlamırdı ki, onu niyə vururlar. Mənim anladığım budur: biz yanaşı yaşayırıq və danışıb razılığa gəlməliyik. Əgər biz bundan yaxşı yol biliriksə, onda gəlin müharibə edək. Bu, boş və mənasız işdi. Biz səninlə çoxdan anlamışıq ki, heç kimə kimisə məğlub etmək müəssər olmayıb. Hər iki tərəf uduzur. Əgər yanaşı yaşayırıqsa, razılığa gəlməliyik.

**- Razılığa gəlmək - tarixi erməni torpaqlarını qaytarmaq deməkdir?**

- Danışıb anlaşmaq lazımdır. Üç metr götürmək... Azərbaycanlılar və ermənilər su üstündə dalaşanda Avanes Tumanyan ata minib gedir və onları fikirlərindən daşındırmağa çalışırdı. Ədavəti qızışdırmağa yox ha, aralarında anlaşma yaratmağa çalışırdı. Deyirdi ki, sənə də su lazımdı, mənə də. Gəlin cəhd edək, bu gün sən burax suyu, sabah mən. Yəni ra-zı-lı-ğa gəlmək lazımdır!

**- Sizcə, razılığı necə əldə etmək olar? Onlar torpaqları istəyirlər. Bəzi əraziləri - Qarabağa status verilməsi əvəzində Azərbaycana qaytarmaq?**

- Əgər mən bu məsələ ilə məşğul olsaydım - ölkənin prezidenti olsaydım, 2-3 gecə yatmazdım, fikirləşərdim ki, bunu necə eləmək olar? İndi bu suala cavab verə bilmərəm. Torpaqları qaytaraq, yoxsa yox - mən bilmirəm. Mənim bildiyim budur ki, insanlar yanaşı yaşayırlarsa, mütləq razılığa gəlməlidirlər.

**- Bəs bir erməni kimi siz ərazilərin status müqabilində qaytarılmasının əleyhinəsiz?**

- Mən onun əleyhinəyəm ki, ermənilər ölməsinlər. Yaxşı yaşasınlar. Mənə desinlər ki, qazı Urenqoydan daşıyıb gətirmək lazım deyil, yaxınlıqda -Türkiyənin qazı var. Mən bax bunu istəyirəm. Amma necə razılıq əldə edilməlidir və s. kimi məsələlərlə prezidentlər məşğul olmalıdırlar. Mən, sadəcə, klounam. Vəssalam...

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun


**"Söz verirəm ki, ƏDV ləğv edilsə, kitablar 18 faiz ucuzlaşacaq"**


**Nobel mükafatlı yazıçını "fahişəliyi təbliğ etməkdə" suçladılar**


**Hitlerin kitabxanasından qorxunc kitab hərracda**


ELÇİN: **"Gənc yazarların ən böyük çatışmazlığı odur ki..."**


**"Oxu zalı"nda Azərbaycan ədəbiyyatı kitabxanası**

# Bəxtiyar Hacıyev həbsdə suallara cavab verir


Bəxtiyar Hacıyev

**Həbsdəki gənc fəal Bəxtiyar Hacıyev AzadlıqRadiosunun saytına göndərilmiş suallara cavab verib. Keçmiş deputatlığa namizəd B. Hacıyev hərbi xidmətdən yayınmada ittiham olunaraq 2 il müddətinə azadlıqdan məhrum edilib. Bir sıra yerli və beynəlxalq hüquq müdafiə təşkilatları onun həbsinin siyasi fəaliyyəti ilə bağlı olduğunu deyir. Bəxtiyar Hacıyevə AzadlıqRadiosu oxucularının göndərdikləri sualları və məhbus gəncin ona cavablarını aşağıda forum hissəsində oxuya bilərsiniz.**

**Dissident:** *Azərbaycanın gələcəyini necə görürsən ? Allah qapını açsın.*

**Bəxtiyar Hacıyev:** Azərbaycan dünyadan izolə edilməyib, dünyanın bir çox yerində, hətta ən “qaranlıq” yerlərində müsbət dəyişikliklər baş verir. Bütün bu proseslər Azərbaycanda da müsbət dəyişiklikləri sürətləndirəcək. Gələcəyimizi sivil, demokratik, inkişaf etmiş, vətəndaşlarının rifah səviyyəsi yüksək olan dövlətlər arasında, ön sıralarda görürəm. Gələcəyimizi belə görmək kifayət deyil, bunun üçün çalışmalıyıq. Görmək istədiyimiz gələcək Azərbaycanı özümüz qurmalıyıq. Təşəkkürlər!

**Nərmin:** *Salam, Bəxtiyar! Facebook statuslarınızın birində altruizmin vacibliyinə vurğu etmisiniz. Ümumiyyətlə, çıxışlarınızda "mənəvi məsuliyyət" məsələsinə tez-tez toxunursunuz. Sizcə, bu gün cəmiyyətimizdə əksiklərin belə çox olmasında bu dəyərlərdən imtina edilməsimi dayanır? Sizə tezliklə fiziki azadlıq arzu edirəm Allahdan!*

**Bəxtiyar Hacıyev:** Həbsdən dostlarım vasitəsilə yenilədiyim o status yazılan ərəfədə Harvard, Kolumbiya universitetlərinin tədqiqatçılarının insan genlərində alturizm, yardımlaşma izləri ilə bağlı yazılarını oxumuşdum. Tədqiqatçılar bir çox təcrübələrə istinadən bildirirlər ki, insanlar heç də hər zaman öz fərdi maraqları çərçivəsində “maksimum şəxsi mənfəət, minimum şəxsi zərər” prinsipi ilə işləmirlər. Onları yalnız maddi mükafatla həvəsləndirib, cəza ilə qorxuzmaq olmaz. Təcrübələrdən birində xəstələrə qan verən donorlara pul təklif olunur. Rasional tədqiqatçılar düşünür ki, bu addım qan verənlərin sayını artıracaq. Lakin əksi baş verir. Donorların sayı kəskin azalır. Sonra tədqiqatçılar hər qan verən şəxsə ayrılan pulun xeyriyyə fonduna veriləcəyini bildirirlər, bu addım qan donorlarının sayını dəfələrlə artırır. Buna bənzər bir çox maraqlı təcrübələr edən tədqiqatçılar belə qənaətə gəlirlər ki, insan genlərində başqalarının həyatlarında müsbət rol oynayan tərəflər var, insan hər zaman yalnız özünü düşünmür və düşünməməlidir. Sonda onlar siyasətçilərə, iş adamlarına, idarəçilərə tövsiyə edirlər ki, sistemlərin, təşkilatların effektivliyini artırmaq üçün bu məqamlara diqqət yetirsinlər.

Zənnimcə, Azərbaycanda bu gün bir çox problemin kökündə şəxsi, maddi maraqlar uğrunda rəqabət dayanır. Vətəndaşdan rüşvət alan məmur, dövlət büdcəsini mənimsəyən nazir, qonşusunu aldadan şəxs və s. hamısı maddi baxımdan çevrəsindəkilərdən daha yaxşı yaşamaq üçün yarışır. Bu zaman başqalarına vurduqları ziyanı düşünmürlər. Düşünürəm ki, cəmiyyətdə, xüsusilə gənclər arasında altruizm, fədakarlıq kimi dəyərləri təbliğ etməklə bu yarışı, rəqabəti əks istiqamətdə çevirmək olar. Bununla da şəxsi maraqlar üçün rəqabətdən daha çox, ictimai maraqlar üçün əməkdaşlığa nail ola bilərik.

Təşəkkürlər, arzunuza görə!

**Şəfi Şəfiyev:** *Salam, Bəxtiyar bəy! İlk öncə sizin azad olunmağınızı Allahdan diləyirəm. Sizə sualım isə budur. Siz inşallah azadlığa çıxandan sonra mübarizəni davam etdirəcəksinizmi? Yoxsa özünüzə qapanıb, "Düzəlməz bu Vətən" deyib, yorğanınızı başınıza çəkəcəksiniz?*

**Bəxtiyar Hacıyev:** Təşəkkürlər arzunuza görə! Mübarizənin forması, yeri, miqyası dəyişə bilər. Amma mübarizə davam edəcək, çünki “Düzəlməz bu Vətən” yanaşması qəbul edə biləcəyim son yanaşmadır. Azərbaycan xalqı ən az inkişaf etmiş ölkələrin vətəndaşları qədər xoşbəxt, firavan, azad yaşamağa layiqdir. Buna görə də oyuna davam....

**Anonim:** *Salam, Bəxtiyar! Sizcə, bu xalq üçün bu qədər əzab çəkməyə dəyərmi?*

**Bəxtiyar Hacıyev:** Salam, insan hər şeydən zövq almağı bacarmalıdır. Başqalarına əzab kimi görünən bir çox çətinliklərdən də zövq almaq mümkündür. Xüsusilə də bu çətinliklərə böyük bir tarixi missiyaya görə qarşılaşırsa. Bu gün dünyada xoşbəxt yaşayan xalqların çoxu bu yolu keçib, orada da döyülən, həbs edilən, sürgünə göndərilən, öldürülən insanlar olub. İkincisi, bu xalqın içində bizim valideynlərimiz, övladlarımız, qohum və dostlarımız, sevdiklərimiz də var. Bunu da unutmamaq lazımdır.

**Meraqci:** *Salam, Bəxtiyar bəy! Ümid edirəm ki məhkumluq həyatı səni daha da möhkəmləndirib və daha da mübariz insan olmağa sövq edib. Bu, belədir?*

**Bəxtiyar Hacıyev:** Salam! Məhkumluq həyatı insanın iradəsinin möhkəmlənməsi, həyata fərqli baxış qazanması üçün dəyərli bir məktəbdir. Həbs məni də daha möhkəm, daha mübariz edib.

**Çox sayda digər sualların cavabını AzadliqRadiosu.az saytında oxuyun.**





“250 plyus” gerçəkliyə fərqli baxışdır. AzadliqRadiosu.az saytında gülüş doğuran və düşündürən videosüjetlərə siz də baxın.

- 1 miyard pulu 6 aya necə xərcləməli
- Metroda qiymətlər bu verilişdən sonra qalxdı

# Şəhər telefonları ilə danışıq pullu olur



Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Tarif Şurasına şəhərdaxili telefon danışıqlarına vaxt hesabı ödəniş sistemi müəyyən edilməsi ilə bağlı iki variant göndərib. Bu barədə «Trend»ə nazirlik yanında Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin (İB) baş direktoru Beytulla Hüseynov deyib. Onun sözlərinə görə, ümumi istifadədə olan telefon şəbəkəsinin birinci paketdə danışıqların yuxarı limitinin hər əlavə dəqiqəsi 0,01 manata başa gələcək. Beytulla Hüseynov bildirib ki, birinci paket iki manat həcmindəki mövcud aylıq abunə ödənişinin saxlanmasını nəzərdə tutur ki, bura 450 dəqiqə limiti daxil ediləcək. Danışıqların əlavə dəqiqələrinin qiyməti 0,01 manata başa gələcək.

Beş manat dəyərində olan ikinci paket telefon rabitəsindən limitsiz istifadəni nəzərdə tutur. Bununla yanaşı, abunəçilərə əlavə üstünlüklər təqdim ediləcək. Bunlar genişzolaqlı internetə avtomatik qoşulma, multimedia xidmətləri və s.-dən pulsuz istifadədir: «Bizim hesablamalarımıza görə, hazırda abunəçilərin 80 faizindən çoxunun danışıqları ayda 450 dəqiqəni ötmür. Orada abunəçilər üçün bir sıra üstünlüklər və güzəştlər nəzərdə tutulub. Məsələn, ikinci paketdə beynəlxalq zənglərə olan borclara görə abunəçinin telefon xətti bağlanmayacaq».

Beytulla Hüseynov deyib ki, bu və ya digər paketin seçimi abunəçidən asılı olacaq.

## Azərbaycanın kölgə iqtisadiyyatı nə boydadır? - Müzakirə

AzadliqRadiosu.az saytının AzadliqEko səhifəsində yeni müzakirəyə başlayır.

Kölgə iqtisadiyyatı Azərbaycanda nə böyüklükdədir? Burda nə qədər adam çalışır? Burda neçə manatlıq daxili məhsul istehsal olunur? Bu, ümumi daxili məhsulun nə qədəridir?

İqtisadçı-ekspert Natiq Cəfərli:



1) Bəzi beynəlxalq və yerli ekspertlərin rəyinə görə, Azərbaycanda iqtisadiyyatın 60% "kölgədədir".

2) Əgər nəzərə alsaq ki, ölkədə 4,3 milyon potensial işçi qüvvəsi var, lakin bunun cəmi 1,6 milyonu rəsmi qeydiyyatlı çalışır, onda bu sahədə yüz minlərlə insanın çalışdığını təxmin etmək olar.

3) Təqribi hesablamalara görə, əgər "kölgə iqtisadiyyatı" minimuma ensə, ÜDM-də nəzərəçarpacaq, təqribən 7-8 mlrd. manatlıq artım ola bilər.

4) Əgər təqribi hesablamalarımız həqiqətə yaxındırsa, "kölgə iqtisadiyyatının" ümumi ÜDM-də payı, 20-25% olmalıdır.

Sizin fikrinizcə, kölgə iqtisadiyyatı nə böyüklükdədir? Müzakirələrə qatılın...

# AzadlıqRadiosunda verilişlər:

| | |
|---|---|
| 8:00 | Qafqaz Qovşağı /Azadlıq Bölgələrdə / Kontekst / Şəffaflıq / Overtime |
| 9:00 | İz / Şəffaflıq / İşdən sonra |
| 10:05 | Qərb musiqisi |
| 11:00 | Xəbərlər |
| 11:05 | Qərb musiqisi |
| 12:00 | Xəbərlər |
| 12:05 | Qafqaz Qovşağı / Qaynar Xətt / Can Bakı / Iz / Şəffaflıq / 14-24 / Şəffaflıq / Azadlıq Bölgələrdə |
| 13:00 | Xəbərlər |
| 13:05 | Qərb musiqisi |
| 14:00 | Xəbərlər |
| 14:05 | Overtime / Kontekst / Qaynar Xətt / Can Bakı / Pen club / Overtime / Iz / Şəffaflıq |
| 15:00 | Xəbərlər |
| 15:05 | Qərb musiqisi / Qaynar Xətt / Can Bakı |
| 15:30 | Amerikanın Səsi / İz |
| 16:00 | Xəbərlər |
| 16:05 | Qərb musiqisi / İşdən sonra |
| 17:00 | Xəbərlər |
| 17:05 | İşdən sonra |
| 18:00 | Xəbərlər |
| 18:05 | İşdən sonra / Pen Klub |
| 19:00 | Qərb musiqisi |
| 20:00 | Xəbərlər |
| 20:05 | Kontekst / Azadlıq Bölgələrdə / Şəffaflıq / Qaynar Xətt / İslam və Demokratiya / 14-24 / İz |
| 20:30 | Amerikanın Səsi / Qafqaz Qovşağı / 14-24 |
| 21:00 | Qərb musiqisi |
| 22:00 | Xəbərlər |
| 22:05 | Kontekst / 14-24 / Şəffaflıq |
| 23:00 | Xəbərlər |
| 23:05 | Overtime / İşdən sonra / AzadlıqFM / Overtime |
| 00:00 - 8:00 | Amerikanın Səsi / Qərb musiqisi |

**Qeyd:** Kəsr xətti ilə verilmiş – eyni saatlara düşən verilişlər həftənin günlərindən asılı olaraq növbə ilə təkrar gedir...

# Simsiz teleqraf

## Leyli satıcı olsaydı...



*Yəqin alıcılar ona şeirlə bax belə müraciət edərdi.*
***Yüklədi: Anonim***

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**
efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

necə dinləməli...

24 saat

**Mobil telefonda canlı:** İndi 3G, GPRS və ya Wi Fi-la radiomuzu canlı dinləmək olur... Ətraflı: **AzadliqRadiosu.az**-da

# AzadlıqRadiosu Facebook-da




**facebook.com/azadliq**

**E-mail:** efir@AzadliqRadiosu.az

**Qaynar Xətt:** 436-77-41

Bizimlə əlaqə:

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30


Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tblisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz